# AZƏRBAYCAN RESPUBLİKASINDA İCTİMAİ İNFORMASİYALARIN AÇIQLANMASI VƏ ƏLDƏ EDİLMƏSİNİN MONİTORİNQİ

Open Society Institute–
Assistance Foundation Azerbaijan

REVENUE WATCH INSTITUTE

# AZƏRBAYCAN RESPUBLİKASINDA İCTİMAİ İNFORMASİYALARIN AÇIQLANMASI VƏ ƏLDƏ EDİLMƏSİNİN MONİTORİNQİ

Hesabat 2008-ci ildə ACİ-YF və Gəlirlərə Nəzarət İnstitutu tərəfindən maliyyələşdirilmiş və hayata keçirilən ictimai vəsaitlərlə bağlı məlumatın əlçatanlığının monitorinqi, 2007-ci illə müqaisəli təhlil, o cümlədən rəsmi dövlət saytlarında ictimai vəsaitlərlə bağlı məlumatların mövcudluğunu əhatə edən layihə çərçivəsində hazırlanmışdır.


Layihənin əlaqələndiricisi və hesabatın müəllifi - **Emil Ömərov**

Hüquqşunas-ekspert:
**Ələsgər Məmmədli**

Layihənin ekspertləri:
**Azər Mehtiyev**
**Qubad İbadoğlu**
**Sahib Məmmədov**



Dizayn:

«KHATT»
Advertising Agency

www.khatt.az

Open Society Institute–
Assistance Foundation Azerbaijan

REVENUE WATCH INSTITUTE

Bakı - 2009

# Giriş

Azərbaycanda "İnformasiyanın əldə edilməsi" haqqında qanun 2005-ci ildə qəbul edilmişdir. Ölkənin ən təkmil yazılmış qanunlarından hesab edilən bu qanun əslində Azərbaycan vətəndaşlarına, fiziki və hüquqi şəxslər olaraq istənilən dövlət orqanı və dövlət vəsaitlərini idarə edən qurumlara informasiya sorğusu göndərmək və cavab almaq imkanı verir.

2007-ci ildə Açıq Cəmiyyət İnstitutu – Yardım Fondunun maliyyə dəstəyi ilə ictimai vəsaitlərlə bağlı İnformasiyanın əldə edilməsinin moniqotinqi aparılmışdır. Monitorinqin 2 əsas məqsədi olmuşdur: daha həssas informasiya hesab edilən ictimai vəsaitlər barədə məlumatın əlçatanlılığının ölçülməsi və büdcə vəsaitləri, neft gəlirləri və hasilat sənayesi təsirlərinin aradan qaldırılması üzrə ixtisaslaşmış qurumlar olan Milli Büdcə Qrupu, Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası və Vətəndaş Nəzarəti Şəbəkəsinin fəaliyyəti gedişatında tələb edilən sorğulara cavabların alınmasının asanlaşdırılması.

2007-ci ildə aparılan monitorinq "Multimedia" mərkəzi tərəfindən həyata keçirilmişdir. Nəticədə müxtəlif növ ictimai vəsaitlərin və informasiya daşıyıcsı olan müxtəlif qurumların açıqlıq dərəcəsi müəyyən edilmiş və hesabat hazırlanmışdır. Layihə çərçivəsində iqtisadçı ekspertlər və hüquqşünasdan ibarət işçi qrup formalaşmışdır.

2008-ci ildə monitorinq davam etdirilmişdir. Bu dəfə formalaşmış işçi qrupu ilə yanaşı, dövlət qurumlarının veb resurslarının monitorinqi də nəzərdə tutulurdu. Məqsəd ictimai vəsaitlər barədə məlumatın əldə edilməsnin tam miqyaslı monitorinqini əhatə etmək olmuşdur.

Layihə eyni zamanda ölkədə 2007-ci ildən dəyişikliklər və QHT-lərin sorğularına münasibətin hansı istiqamətə dəyişməsinin öyrənilməsinə istiqamətlənib.

Hazırki hesabat ötən müddət ərzində aparılan monitorinq işini əhatə etməklə, eyni zamanda yeni monitorinq metodologiyasını ortaya qoyur. Gələcək planlara isə, layihənin miqyasının böyüdülməsi və region ölkələri arasında müqaisəli monitorinqin aparılması daxildir.

**Fidan Bağırova,**
Neft Gəlirləri və İctimai Vəsaitin Şəffaflığı proqramı
ACİ-YF, Azərbaycan

**Maddə 1**

"İnformasiyanı əldə etmək" haqqında AR Qanunun məqsədi Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi ilə təsbit olunmuş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirməkdən, həmçinin, ictimai vəzifələrin yerinə yetirilməsinə vətəndaşlar tərəfindən nəzarət olunmasına şərait yaratmaqdan ibarətdir.

İctimai vəsaitlərlə bağlı monitorinqin aparılması üçün seçilmiş metodologiya əslində kifayət qədər uğurludur. Onun ən böyük üstünlüklərindən biri bu metodologiyanın müxtəlif sahələrə tətbiq edilmə imkanının olmasıdır. Belə ki, istər təhsil, istər səhiyyə, istərsə də KİV sahəsinə aid məlumatın açıqlıq və əlçatanlılıq səviyyəsini öyrənmək olar.

*Monitorinq metodoligiyasını aşağıdakı mərhələlərə bölmək olar:*

1. İctimai vəsaitlərin şəffaflığı və hesabatlılığı üzrə ixtisaslaşmış qurumların nümayəndələrindən ibarət ekspert qrupu formalaşdırılmışdır
2. Ekspert qrupu 4 ay ərzində (bu müddət sorğuların sayına müvafiq artıb-azala bilər) müvafiq dövlət orqanları və dövlət vəsairlərini idarə edən dövlət qurumlarına göndəriləcək sorğuları hazırlamışdır. Hazırlanmış sorğulara bir vəya bir neçə sual daxil edilə bilər.
3. Sorğular hüquqşunasla müzakirə edilmiş və "İnformasiyanın əldə edilməsi" haqda qanunun tələblərinə müvafiq formalaşmışdır.
4. Sorğular müvafiq orqanlara göndərilmişdir.
5. Qanunla tənzimlənən qaydada sorğulara cavablar toplanmış (cavablandırılmayan sorğular da ayrıca qeydə alınmışdır) və emal edilmişdir. Emal prosesində ekspertlərlə yanaşı hüquqşünas da iştirak etmişdir. Sorğuların yoxlanılması a) daxil olan cavabların suala müvafiqliyi b) daxil olan cavabların qanunvericiliyin vaxt limitlərinə uyğunluğu c) sorğu göndərənlərə münasibət və s. kriterilər əsasında aparılmışdır.
6. Göndərilmiş və daxil olan bütün məlumatı özündə əks etdirən cədvəl hazırlanmışdır.
7. Məlumatın təhlilini özündə əks etdirən hesabat hazırlanmışdır. Hesabatda sorğulara verilən cavabların həm kəmiyyət, həm də keyiyyət təhlili aparılmış, diaqram və piroqlarla təhlil genişləndirilmişdir.

Monitorinq zamanı 168 yazılı sorğu hazırlanmışdır, sorğularda 355 adda informasiya tələb edilmişdir.
Sorğunu göndərən qurumlar Milli Büdcə Qrupu, MSŞA Koalisiyası, Vətəndaş Nəzarəti Şəbəkəsi, o cümlədən "Ekspert" İqtisad Jurnalı və sadə vətəndaş olmuşdur. Sorğular nazirliklər, məhkəmə orqanları, komitələr və neft şirkətlərinə ünvanlanmışdır.

Göndərilən sorğular prosedur, statistika və sənəd xarakterli olmuşdur.
Hesabata daxil edilən qrafiklərdə qeyd edilən məlumatı daha aydın şəkildə və ətraflı çatdırılmasında mühüm rol oynamışdır.

Monitorinq nəticələrinin daha anlayışlı olması üçün hesabatda qrafik və cədvəllərə böyük yer ayrılmışdır. Eyni zamanda ACİ-YF-nun maliyyələşməsi ilə 2007-ci ildə həyata keçirilmiş layihə nəticələri ilə müqaisə aparılaraq, ötən vaxtdan irəliləyişin olub-olmaması təhlil edilmişdir.

Yuxarıda qeyd edildiyi kimi, 169 informasiya sorğusunda 355 adda informasiya tələb edilmişdir. Sorğular 69 informasiya sahibinə ünvanlanmışdır.

*Sorğu göndərənlər isə 3 qrupda birləşmişdir:*

- Qeyri-hökümət təşkilatları - qeydiyyatdan keçmiş hüquqi şəxslər
- Fiziki şəxs
- Və media təsisatı

Sorğu göndərənlərin müxtəlifliyi ölkədə müxtəlif qruplara münasibətin öyrənilməsi üçün tətbiq edilmişdir.

**A. Sorğu sayı və növü**

**Göndərilmiş sorğuların sayı - 169 sorğu**




Qrafikdən göründüyü kimi 168 sorğu 5 qurum tərəfindən göndərilmişdir. Həmin 169 sorğuda 355 adda informasiya tələbi aşağıdakı kimi bölüşdürülmüşdür.

**B. Sorğuların xarakteri**

**Göndərilmiş suallar - 355 adda məlumat tələbi**




**Maddə 6. İnformasiya əldə olunmasının əsas prinsipləri**

**6.0.** İnformasiya əldə olunmasının əsas prinsipləri aşağıdakılardır:
**6.0.1.** informasiya sorğusunun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə təmin edilməsi;
**6.0.2.** informasiyanın əldə olunmasının qanuniliyi;
**6.0.3.** dövlət orqanlarının və bələdiyyələrin informasiyanı açıqlamaq vəzifəsi;
**6.0.4.** informasiyanın maksimum açıqlığı;
**6.0.5.** informasiya sorğusunun ən qısa zamanda və ən münasib üsulla təmin edilməsi;
**6.0.6.** informasiya təqdim olunarkən insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyinin qorunması;
**6.0.7.** informasiya əldə etmək hüququnun dövlət tərəfindən qorunması, o cümlədən məhkəmə yolu ilə müdafiəsi;
**6.0.8.** bu Qanunla müəyyənləşdirilmiş hallar istisna olmaqla informasiyanın əldə edilməsinin ödənişsiz həyata keçirilməsi;
**6.0.9.** informasiya əldə etmək hüququnun pozulmasına görə informasiya sahiblərinin məsuliyyət daşıması;
**6.0.10.** informasiya əldə edilməsinə qoyulan məhdudiyyətin bu məhdudiyyəti doğuran əsaslardan daha artıq müəyyənləşdirilməməsi;
**6.0.11.** ictimaiyyətdə maraq doğuran hüquq pozuntuları barədə məlumatı açıqlamağa görə vəzifəli şəxslərin təqib olunmaması.

**Maddə 9. İnformasiya sahibləri**

**9.1.** Aşağıdakılar informasiya sahibləri sayılır:
**9.1.1.** dövlət orqanları və bələdiyyələr;
**9.1.2.** ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslər, həmçinin normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslər və fiziki şəxslər.
**9.2.** Bu Qanunun 9.1.2-ci maddəsində təsbit olunan hüquqi və fiziki şəxslərə informasiya sahiblərinin bu Qanunla müəyyənləşdirilmiş vəzifələri yalnız ictimai funksiyaların yerinə yetirilməsi, yaxud normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə göstərilən xidmət nəticəsində yaranan və ya əldə edilən informasiyalar üzrə şamil olunur.
**9.3.** Aşağıdakılar informasiya sahiblərinə bərabər tutulur:
**9.3.1.** əmtəə bazarında hökmran mövqe tutan, xüsusi və ya müstəsna hüquqa, yaxud təbii inhisara malik olan hüquqi şəxslər - malların və xidmətlərin təklif edilməsi şərtlərinə və onların qiymətlərinə, həmin şərtlərdə və qiymətlərdə dəyişikliklərə aid informasiyalar üzrə;
**9.3.2.** tamamilə və ya qismən dövlət mülkiyyətində, yaxud asılılığında olan qeyri-kommersiya təşkilatları, büdcədənkənar fondlar, həmçinin dövlətin üzvü olduğu və ya iştirak etdiyi kommersiya birlikləri - dövlət büdcəsindən verilmiş vəsaitdən və ya onlara ayrılmış əmlakdan istifadəyə aid informasiyalar üzrə.

Layihə çərçivəsində tələb olunan informasiyanın xarakterinə görə sorğular 3 yerə bölünmüşdür: **prosedur, statistika və sənəd.**

**B. Sorğunun xarakteri**




Statikstik məlumatlar əsasən rəqəmlər, o cümlədən əməliyyatların həcmi və miqdarı, bir sözlə kəmiyyətlə bağlı göstəricilər, prosedur məlumatlarına daxili nizamnamələr, iş prinsipləri və prosedurlar, sənəd məlumatlarına isə hesabatlar və qəbul edilmiş sənədlər, o cümlədən qərarlar və hüquqi aktlar barədə məlumat tələblərini əhatə etmişdir.

*Qeyd: Prosedur,sənəd və rəqəm sorğu nümunələrinə "sorğular" bölməsində baxa bilərsiniz*

**C. Sorğuları alan (say)**



*Layihə çərçivəsində sorğular müxtəlif dövlət qurumlarına və komitələrə, məhkəmələrə, dövlət şirkətlərinə və neft şirkətlərinə göndərilmişdir. Bu hesabatda sorğuları alan qurumlar 4 qrupa bölmək olar:*

1 Nazirliklər
2 Komitə və digər dövlət orqanları (Paytaxt və rayonlarda yerləşən dövlət komitələri, dövlət idarələri, şöbələr, dövlət agentlikləri və s.)
3 Şirkətlər (Dövlət konsernləri, ARDNŞ və xarici neft şirkətləri)
4 Məhkəmə orqanları (Bakı şəhəri və digər rayonlar)

## D. Sorğulara münasibət – ümumi daxil olan cavablar

**Aşağıdakı qrafikdə hər bir sorğu alan qrupuna göndərilən informasiyaların sayı və faizlə payı əks etdirilib:**

| Sorğu alan qrup | Göndərilən sorğu sayı | Cavablandırılan sorğu sayı | İcra faizi |
|---|---|---|---|
| Nazirlik | 40 | 19 | 47% |
| Digər dövlət qurumları | 45 | 22 | 48% |
| Şirkətlər | 64 | 33 | 51% |
| Məhkəmə orqanları | 20 | 10 | 50% |
| Cəmi | 169 | 84 | 49.7% |

Cədvəldən göründüyü kimi, ümumi icra faizi təqribən 50% olmuşdur. Sorğu qruplarının hamısı demək olar ki, sorğuların yarısına bu və ya digər formada cavab vermişdir. Bununla bağlı keyfiyyət təhlilində daha geniş vəətraflı məlumat veriləcək.

**Daxil olan 84 cavabda sorğu qruplarının cavablandırma səviyyəsi aşağıdakı qrafikdə əks olunub:**




Monitorinq zamanı daxil olan məlumatın keyfiyyət təhlili də aparılmışdır. Bu, sorğu alanlara münasibət, eyni zamanda müxtəlif dövlət orqanları və şirkətlərin qanunun icrasına yanaşmalarını daha aydın görməyə yardımçı olmuşdur.

**Maddə 24. İnformasiya sorğusunun icra müddəti**

**24.1.** İnformasiya sorğusu ən qısa müddətdə, lakin 7 iş günündən gec olmayaraq icra edilir.
**24.2.** Bu müddətdə həmin informasiya öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab verilməlidir.
**24.3.** İnsan həyatı, sağlamlığı, yaxud şəxsin azadlığı üçün real təhlükə yarandığı hallarda axtarılması və hazırlanması müəyyən vaxt tələb edən informasiya 48 saat ərzində (bayram və istirahət günləri istisna olmaqla) təqdim edilir.
**24.4.** Əgər sorğu natamam və ya qeyri-dəqiq tərtib olunubsa, vəzifəli şəxs müəyyən edilmiş çatışmazlıqlar barədə sorğuçuya 5 iş günü ərzində məlumat verir.
**24.5.** İnformasiya sorğusunun bu Qanunla müəyyənləşdirilmiş icra müddəti sorğunun qeydə alındığı günün sonrakı iş günündən hesablanır.
**24.6.** Bu Qanunun 24.4-cü maddəsində göstərilən hallarda sorğunun icra müddəti çatışmazlıqlar aradan qaldırıldıqdan sonra yenidən təqdim edildiyi günün sonrakı iş günündən, bu Qanunun 23.1-ci maddəsində nəzərdə tutulan hallarda isə sorğunun baxılma müddəti ilk daxil olduğu tarixdən deyil, göndərildiyi müvafiq informasiya sahibinə daxil olduğu günün sonrakı iş günündən hesablanır.

"İnformasiya əldə etmək haqqında" qanunun 24-cü maddəsinə əsasən, informasiya sorğusu ən qısa müddətdə və 7 iş günündən gec olmayaraq cavablandırılmalıdır. Göndərilmiş 169 sorğudan yalnız 84 sorğuya hər hansı münasibət bildirilmişdir. Digər 85 sorğuya isə heç bir reaksiya verilməmişdir. (Hər hansı münasibət deyildikdə, sorğuya verilmiş istənilən reaksiya, o cümlədən yazılı imtina, qismən cavab və tam cavab nəzərdə tutulur).

**A. Sorğulara reaksiya**




Hər hansı reaksiya verilən 84 sorğuya aşağıdakı formada münasibət bildirilmişdir:

| | |
|---|---|
| Tam cavab | 65 Sorğu |
| Qismən cavab | 3 Sorğu |
| İmtina | 16 Sorğu |

Tam cavab - sorğu tam cavablandırılıb və tələb olunan informasiya qaneedici formada təqdim edilib.
Qismən cavab - sorğuda tələb olunan informasiyanın bəzisinə cavab verilib, bəzisi isə cavablandırılmayıb.
İmtina - tələb olunan informasiya müxtəlif bəhanələrlə verilməyib, yaxud imtina edilib. Məsələn, sorğunu göndərən təşkilatdan nizamnamə tələb olunub, halbuki bu qanuna ziddir.

## B. Reaksiya verilən sorğulara münasibət




**Sorğuların qanunvericiliyə uyğun olaraq vaxtında cavablandırılması**

Qanunvericiliyin vaxt tələbləri göndərilən sorğular üzrə müxtəliof formada təmin edilmişdir. Belə ki, göndərilən 169 sorğudan 40 sorğuya 12 gün ərzində cavab verilmişdir, 44 sorğuya isə cavab 6 aya qədər gecikmişdir.

**Müxtəlif informasiya sahiblərinə göndərilən 169 sorğudan:**

| | |
|---|---|
| 40 | Vaxtında cavablandırılmışdır |
| 44 | Cavab gecikmişdir |
| 85 | Heç cavablandırılmamışdır |

## C. Sorğuların vaxt tələblərinə uyğun cavablandırılması



## C. Sorğu göndərənə münasibət

**Qeyd edildiyi kimi, sorğular 5 ünvandan göndərilmişdir. Sorğulara münasibət isə aşağıdaki cədvəldə göstərildiyi kimidir:**

| Sorğunu göndərən | Say | Cavablandırılıb | % | Tam cavab | İmtina | Qismən | Vaxtında | Gecikmiş | Tam və vaxtında | % |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| MSŞA | 64 | 33 | 52 | 23 | 10 | 0 | 5 | 28 | 5 | 8 |
| MBQ | 34 | 13 | 38 | 8 | 2 | 3 | 5 | 8 | 3 | 9 |
| VNŞ | 31 | 16 | 52 | 16 | 0 | 0 | 13 | 3 | 13 | 42 |
| Ekspert iqtisad jurnalı | 20 | 11 | 55 | 9 | 2 | 0 | 10 | 1 | 8 | 40 |
| Sadə vətəndaş | 20 | 11 | 55 | 9 | 2 | 0 | 7 | 4 | 6 | 30 |
| Cəmi | 169 | 84 | 49.7 | 65 | 16 | 3 | 40 | 44 | 35 | 21 |

Məsələn, MSŞA koalisiyası müxtəlif qurumlara 64 informasiya sorğusu göndərmişdir. Bu sorğulardan 33-nə(sorğuların 52%) hər hansı formada münasibət bildirilmişdir. Məlumat təminatı baxımından 23 sorğuya tam cavab verilmişdir, 10 sorğunu cavablandırmaqdan isə müxtəlif bəhanələr gətirilərək imtina edilmişdir. Sorğuların vaxtında cavablandırılması baxımından isə yalnız 5 sorğu qanunvericiliyin tələblərinə uyğun olaraq (12 gün) vaxtında cavablandırılmışdır, 28 sorğuya cavab isə tələb olunan müddətdən sonra verilmişdir. Və yalnız 5 sorğuya cavab tam və vaxtında verilmişdir. Bu, ümumi gödərilən 64 sorğunun 8%-i deməkdir.
Ümumi sorğular üzrə isə, göndərilən 169 sorğudan yalnız 49.7%-nə yəni 84 sorğuya hər hansı reaksiya verilmiş, onlardan 65-nə tam cavab və yalnız 35-nə və ya 21%-nə tam və vaxtında cavab verilmişdir.

**3 QHT koalisiyası adından göndərilmiş sorğular və cavabları ümumiləşdirilərək, 3 sorğu verən kateqoriyası formalaşdırsaq, aşağıdakı cədvəl məlumatları alınır:**

| Sorğu göndərən kateqoriyası | Sorğu göndərilib | Reaksiya verilib | % |
|---|---|---|---|
| QHT | 129 | 62 | 48 |
| Jurnalist | 20 | 11 | 55 |
| Vətəndaş | 20 | 11 | 55 |

## D. Nazirlik üzrə açıqlıq dərəcəsi

Sorğular, artıq qeyd edildiyi kimi, asas etibarı ilə dövlət orqanlarına göndərilmişdir. Belə orqanların içində ən böyük çəkiyə nazirliklər malik olmuşdur. Göndərilmiş sorğularda bir neçə adda informasiya tələb olunmuşdur. Bəzi sorğularda yalnız bir qism suallarına cavab verilmiş, digərləri isə hər hansi səbəbə görə cavablandırılmışdır. Aşağıdakı cədvəldə hər bir nazirlik üzrə tələb olunan informasiya və onlara verilən cavab göstərilmişdir. Bu halda cavab yalnız sorğunun tam və ya qismən cavablandırılmasını nəzərdə tutur. Məsələn, Vergilər Nazirliyinə bir sıra sorğular göndərilərək 4 növ informasiya tələb olunmuşdur. Tələb olunan 4 növ informasiya tam və ya qismən cavab verilmişdir və bunlardan yalnız 1 informasiya qanunvericiliyə uyğun olaraq tam və vaxtında cavablandırılmışdır.

| Nazirlik üzrə açıqlıq dərəcəsi Nazirlik | İnformasiya tələb olunub | Cavablandırılıb | % | Tam və vaxtında | % |
|---|---|---|---|---|---|
| AR Vergilər Nazirliyi | 4 | 4 | 100 | 1 | 25 |
| AR İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 100 | 4 | 57,14 |
| AR Təhsil Nazirliyi | 4 | 0 | 0 | 0 | 0 |
| AR Yanacaq və Energetika Nazirliyi | 6 | 2 | 33 | 2 | 33,33 |
| AR Fövqaladə Hallar Nazirliyinə | 8 | 0 | 0 | 0 | 0 |
| AR Kənd Təsərrüfatı Nazirliyinə | 11 | 1 | 9,1 | 1 | 9,091 |
| AR Mədəniyyət və Turizm Nazirliyi | 8 | 4 | 50 | 4 | 50 |
| AR Ekologiya və Təbii Sərvətlər Nazirliyinə | 10 | 9 | 90 | 4 | 40 |
| AR Nəqliyyat nazirliyi | 4 | 4 | 100 | 0 | 0 |
| AR Rabitə və İnformasiya Texnalogiyaları Nazirliyi | 2 | 1 | 50 | 1 | 50 |
| AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 1 | 0 | 0 | 0 | 0 |
| AR Maliyyə Nazirliyi | 5 | 3 | 60 | 0 | 0 |
| AR Gənclər və İdman Naziri | 3 | 0 | 0 | 0 | 0 |
| AR Səhiyyə Nazirliyi | 3 | 2 | 67 | 2 | 66,67 |
| AR Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinə | 3 | 0 | 0 | 0 | 0 |

Cədvəldən göründüyü kimi, ən yüksək göstəriciləri Səhiyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi və Mədəniyyət və Turizm Nazirliyi, ən aşağı göstəriciləri isə Təhsil Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Nəqliyyat Nazirliyi, Əmək Nazirliyi, Gəclər və İdman Nazirliyi və Dövlət Yol Polisi göstərmişlər. Sonuncular ümumiyyətlə heç bir sorğuya heç bir reaksiya göstərməmişlər.

## E. Şirkətlər üzrə açıqlıq dərəcəsi

Bir qism informasiya sorğuları isə  müxtəlif şirkətlərə göndərilmişdir. Bu siyahıya həm xarici neft şirkətləri, həm Dövlət Neft Şirkəti, həm də dövlətin təsis etdiyi şirkələr daxil edilmişdir.

| Şirkət | İnformasiya tələb olunub | Cavablan-dırılıb | % | Tam və vaxtında | % |
|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası Dövlət Neft Şirkəti | 27 | 9 | 33 | 1 | 3,704 |
| „Azərsu„ Dövlət Konserni | 21 | 0 | 0 | 0 | 0 |
| "Azəriqaz" Dövlət QSC | 4 | 4 | 100 | 1 | 25 |
| BP Exploration Limited | 12 | 11 | 92 | 1 | 8,333 |
| " Azərenerji" QSC | 3 | 0 | 0 | 0 | 0 |
| Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhimdar Cəmiyyətinə | 3<br>10 | 3<br>0 | 100<br>0 | 0<br>0 | 0<br>0 |
| Exxon Azərbaycan Limited | 8 | 8 | 100 | 0 | 0 |
| Statoil Azərbaycan | 14 | 0 | 0 | 0 | 0 |
| Şevron Azərbaycan | | | | | |

Şirkətlər üzrə ən yaxşı göstəriciyə Azeriqaz və BP malik olmuşdur. Azərsu, Azərenerji, Exxon və Çevron göndərilən informasiya sorğularına heç bir cavab reaksiyası verməmişlər.

## 2007-ci ilin nəticələri ilə müqayisə

Anoloji monitorinq 2007-ci ildə də ACİ-YF maliyyə dəstəyi ilə “Multimedia” mərkəzi tərəfindən aparılmışdır. Həmin layihə çərçivəsində müxtəlif dövlət qurumlarına, Azərbaycan neft-mədən sənayesində fəaliyyət göstərən xarici şirkətlərə və dövlətin təsis etdiyi dövlət şirkətlərinə ümumilikdə 69 sorğu göndərilmişdir.

**A. 2007-2008-ci illərdə göndərilmiş sorğular**

**2007-ci ildə göndərilmiş sorğular**




**2008-ci ildə göndərilmiş sorğular**




**B. Göndərilən sorğulara reaksiya**

**2007-ci ildə göndərilmiş sorğulara reaksiya**




**2008-ci ildə göndərilmiş sorğulara reaksiya**




**C. Bütün qruplar üzrə göndərilən informasiya sorğularına verilən münasibət**

**Göndərilən informasiya sorğularının təsnifatı - 2007**




**Göndərilən informasiya sorğularının təsnifatı - 2008**



## D. Sorğuların vaxtında cavablandırılması







## E. Dövlət qurumları və şirkətlərin sorğulara münasibəti




Cədvələdən göründüyü kimi, dövlət qurumlarının "İnformasiya əldə etmək" barədə qanuna münasibəti demək olar ki, eyni qalmışdır. Yeganə fərq göndərilən sorğuların sayının artması olmuşdur.

Şirkətlər üzrə dəyişiklik isə əsasən xarici neft şirkəti olan BP və Statoil şirkətinin ötən dəfəki monitoqinqdən fərqli olaraq, bu dəfə sorğulara cavab verməsi olmuşdur. Digər neft şirkətlərinin münasibətində heç bir dəyişiklik baş verməmişdir.

**Maddə 32. İnternet informasiya ehtiyatlarının yaradılması vəzifəsi**

**32.1.** Dövlət orqanları və bələdiyyələr bu Qanunun 29.1-ci maddəsində göstərilən ictimai informasiyaları açıqlamaq üçün İnternet informasiya ehtiyatları yaradırlar.
**32.2.** Müvafiq icra hakimiyyəti orqanları onların tabeliyində olan dövlət orqanlarının İnternet informasiya ehtiyatları formalaşdırmalarına şərait yaratmalıdırlar. Bu məqsədlə sahə (korporativ), regional və s. formada İnternet informasiya ehtiyatları yaradıla bilər

**Maddə 33.** İnternet informasiya ehtiyatlarına verilən tələblər.
**33.1.** Bu Qanunun 9.1-ci maddəsində göstərilən informasiya sahibləri:
**33.1.1.** İnternet informasiya ehtiyatları ilə tanış olmaq imkanları barədə məlumatı əks etdirən müvafiq ünvanları və ya onlara edilən dəyişiklikləri kütləvi informasiya vasitələrində açıqlamaq yolu ilə ictimaiyyətə çatdırırlar;
**33.1.2.** İnternet informasiya ehtiyatlarında ən yeni və aktual informasiyaları yerləşdirirlər;
**33.1.3.** köhnəlmiş, natamam, qeyri-dəqiq və ya çaşqınlıq yaradan informasiyaları İnternet informasiya ehtiyatlarında yerləşdirməkdən imtina edirlər;
**33.1.4.** İnternet informasiya ehtiyatlarının etibarlı fəaliyyətini təmin edirlər.
**33.2.** İnformasiya sahibi İnternet informasiya ehtiyatlarında sənədin yerləşdirildiyi vaxtı və digər üsullarla açıqlanması tarixini göstərməlidir.
**33.3.** Bu Qanunun 9-cu maddəsində göstərilən informasiya sahibləri İnternet informasiya ehtiyatlarında yerləşdirilən ictimai informasiyaların tez və asan əldə edilməsi üçün şərait yaratmalıdırlar.

| Dövlət qurumunun adı | Veb resursların monitorinqi | | | | |
|---|---|---|---|---|---|
| | **Qurumun həyata keçirdiyi proqram və layihələr** | **Tender müsabiqələri haqda məlumat** | **Ümumi dövlət büdcəsinin quruma aid hissəsi haqqında** | **Qurumun norma-(qanun)yaratma fəaliyyəti** | **Sahə işçilərinin əmək haqları barədə** |
| AR Dövlət Statistika Komitəsi www.azstat.org | Məlumat yoxdur | Tender və müsabiqələrin keçirilmə qaydaları və bu haqda elanlar yoxdur | Bu haqda bir kəlmə olsun informasiya yoxdur | Qurumun norma-(qanun)yaratma fəaliyyəti ilə bağlı da heç bir bilgi verilmir | Sahə işçilərinin əmək haqları barədə heç bir bilgi yoxdur |
| AR Maliyyə Nazirliyi www.maliyye.gov.az | Nazirliyin həyata keçirdiyi proqram və layihələr haqqında bilgilər çatışmır | Nazirliyin həyata keçirdiyi proqram və layihələr haqqında bilgilər çatışmır | Ümumi dövlət büdcəsinin quruma aid hissəsi barədə əlavə bilgi yoxdur. Ümumiyyətlə isə nazirliyin maliyyə fəaliyyəti ilə bağlı heç nə verilməyib | Qurumun norma-(qanun)yaratma fəaliyyəti haqqında bilgilər nəzərə çarpmır | Sahə işçilərinin əmək haqları barədə də bilgilər yoxdur. |
| AR İqtisadi İnkişaf Nazirliyi www.economy.gov.az | Qurumun cari fəaliyyəti barədə bilgiləri yetərli saymaq olsa da, onun daxili istifadə üçün nəzərdə tutulan əmr, sərəncam və bu kimi sənədləri barədə heç bir bilgi yoxdur. | Tender və hər cür müsabiqələrlə bağlı da saytda heç bir informasiya yoxdur. | Ümumi dövlət büdcəsinin sahəyə aid hissəsi barədə bölmə ümumiyyətlə yoxdur. | Qurumun norma-(qanun)yaratma fəaliyyəti barədə heç nə deyilmir və hər hansı imkan da təklif edilmir | Sahə işçilərinin əmək haqları ilə bağlı hər hansı informasiya da gözə dəymir |
| AR Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi www.mincom.gov.az | Qurum tərəfindən gerçəkləşdirilən Proqramların və Layihələrin icrası ilə bağlı da konkret və əhatəli bilgilər gözə dəymir. | Tender və müsabiqələrin keçirilməsi ilə bağlı bilgilər tam və dolğun deyil. Burada qaydaların çatışmaması nəzərə çarpır | Ümumi dövlət büdcəsinin sahəyə aid hissəsi və onun icra durumu haqqında da saytda heç bir bilgi verilmir | Nazirliyin norma-(qanun)yaratma fəaliyyəti ilə bağlı bilgilər də demək olar ki, yarımçıqdı | Sahə işçilərinin əmək haqları barədə bilgilərin yoxluğu saytın daha bir çatışmazlığı hesab edilə bilər |

# Rəsmi veb saytlarda olan məlumatlar*

| Dövlət qurumunun adı | Veb resursların monitorinqi | | | | |
|---|---|---|---|---|---|
| | Qurumun həyata keçirdiyi proqram və layihələr | Tender müsabiqələri haqda məlumat | Ümumi dövlət büdcəsinin quruma aid hissəsi haqqında | Qurumun norma-(qanun)yaratma fəaliyyəti | Sahə işçilərinin əmək haqları barədə |
| Daxili İşlər Nazirliyi www.din.gov.az | Qurumun cari fəaliyyəti barədə informasiyalar bol olsa da qurumdaxili əmr və sərəncamlar haqda heç nə deyilmir. Təbii ki, belə sənədlərin reestri də yoxdur | Tender və müsabiqələr haqqında bilgilər də tam sayıla bilməz. Xüsusən də tenderlər barədə heç bir bilgi yoxdur. | Dövlət büdcəsinin nazirliyə aid hissəsi barədə də heç bir bilgi yoxdur. Ümumiyyətlə nazirliyin maliyyə sahəsi ilə bağlı saytda hər hansı bilgi verilmir | Qurumun norma-(qanun)yaratma fəaliyyəti barədə informasiya da olmayanlar sırasındadır | Sahə işçilərinin əmək haqları barədə bilgilər də yoxdur |
| AR Milli Təhlükəsizlik Nazirliyi www.mns.gov.az | Məlumat yoxdur | Məlumat yoxdur | Məlumat yoxdur | Məlumat yoxdur | Məlumat yoxdur |
| AR Ədliyyə Nazirliyi www.justice.gov.az | Məlumat yoxdur | Məlumat yoxdur | Məlumat yoxdur | Məlumat yoxdur | Məlumat yoxdur |
| AR Milli Məclis www.meclis.gov.az | Məlumat yoxdur | Məlumat yoxdur | Məlumat yoxdur | Məlumat yoxdur | Məlumat yoxdur |
| AR Dövlət Gömrük Komitəsinin www.customs.gov.az | Dövlət qurumunun həyata keçirdiyi proqram və layihələr haqqında da heç nə deyilmir | Tender və müsabiqələr barədə də heç bir bilgi yoxdur | Ümumi dövlət büdcəsinin quruma aid hissəsi və onun icra durumu haqqında da heç bir bilgi verilmir | Eyni fikri qurumun norma-(qanun)yaratma fəaliyyəti barədə də demək olar. Bununla bağlı heç bir bilgi verilmir | Sahə işçilərinin əmək haqları və onların formalaşması yolları barədə də heç bir bilgi yoxdur |

* Qeyd: Məlumat 01 Aprel, 2009-cu il tarixinədir. (www.informasiya.org)

Free Economy

**Azad İqtisadiyyata Yardım İctimai Birliyi**

*№ 18* *10 fevral 2009-cu il*

**Bakı şəhər İcra Hakimiyyətinin başçısı**
**cənab H.Abutalıbova**

**Yazılı informasiya sorğusu**

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq Sizə müraciət edir və aşağıdakı suallara yazılı cavab verilməsini təmin etməyinizi xahiş edirik.

1. **2007-2008-ci illərdə Bakı şəhərinin küçələri üçün nə qədər yeni elektrik dirəkləri alınıb və quraşdırılıb?**
2. **Bu iş üçün tender keçirilibmi? Əgər tender keçirilibsə, tender elanı və tenderin nəticələri haqqında məlumatlar hansı mətbu orqanda (tarixi göstərilməklə) nəşr olunub? Tendrin iştirakçıları və qalibləri haqqında ətraflı məlumat verməyinizi xahiş edirik.**

Azərbaycan Respublikasının "İnformasiya əldə etmək haqqında" Qanununa, Məlumat Azadlığı haqqında Qanununa uyğun olaraq bu məlumatlar məhdudlaşdırılmayan və açıq informasiyalar hesab olunur. Bu məlumatlar ictimai önəmli məlumatlardır, ictimai əmlakın vəziyyəti, ondan necə istifadə olunması, ictimai vəsaitlərin necə xərclənməsi ilə bağlıdır və bunların açıqlanması zəruridir. Azərbaycan Respublikasının "İnformasiya əldə etmək haqqında" Qanununun 24.1-ci maddəsinə görə informasiya sorğusu ən qısa müddətdə, lakin 7 iş günündən gec olmayaraq icra edilməlidir.
Xahiş edirik, bu məlumatları mümkün qədər qısa müddətdə bizə təqdim edəsiniz.

*AZ1065, Bakı, C.Cabbarlı 44, Kaspian Plaza, 3-cü bina, 9-cu mərtəbə*
*Azad İqtisadiyyata Yardım İctimai Birliyi*

Təşkilatın telefonları: (+99 412) 437 18 20; Faks: (+99 412) 437 32 30;
Mob: (+99 455) 721 60 43
E-mail: free.economy@gmail.com

Hörmətlə,
**Zöhrab İsmayılov,**
AİYİB İdarə Heyətinin sədri

# Əlavə 2. Göndərilən sorğuları əks etdirən cədvəldən nümunə

| No | Göndərən təşkilat | Göndərilmiş qurum | Kimin adına göndərilib | Məktubun nömrəsi | Sorğu neçə sualdan ibarətdir | Tarix | Daxil olan cavabın tarixi | Sorğunun vaxtında cavablandırılması | Cavablar | Sorğunun xarakteri | Sorğunu alan (Nazirlik, komitə, şirkət, məhkəmə orqanı) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 14 | MSŞA | Azərbaycan Respublikası Dövlət Neft Fondu | Şahmar Mövsümov | itei 10-05 az | 1 | 15 Okyabr 2008 | 23 Oktyabr 2008 | 12 gün | Tam cavab | Statistika | Komitə |
| 15 | MSŞA | Azərbaycan Respublikası Dövlət Neft Fondu | Şahmar Mövsümov | itei 10-04 az | 1 | 15 Okyabr 2008 | 23 Oktyabr 2008 | 12 gün | Tam cavab | Sənəd | Komitə |
| 1 | MSŞA | Azərbaycan Respublikası Səhiyyə Nazirliyi | O. Şirəliyev | itei 10-18 az | 1 | 15 Okyabr 2008 | Cavablandırılmayıb | Cavablan-dırılmayıb | Cavab Verilməyib | Prosedur | Nazirlik |
| 17 | MSŞA | Azərbaycan Respublikası Vergilər Nazirliyi | Fazil Məmmədov | itei 10-02 az | 1 | 15 Okyabr 2008 | 22 Oktyabr 2008 | 12 gün | Tam cavab | Statistika | Nazirlik |
| 32 | MSŞA | Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi | Heydər Babayev | itei 10-25 az | 3 | 15 Okyabr 2008 | 8 Noyabr 2008 | 1-6 ay | Tam cavab | Prosedur | Nazirlik |
| 8 | MSŞA | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti | Rövnəq Abdullayev | itei 10-11 az | 1 | 15 Okyabr 2008 | 4 Noyabr 2008 | 1-6 ay | İmtina İmtina | Sənəd | Şirkət |
| 9 | MSŞA | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti | Rövnəq Abdullayev | itei 10-10 az | 1 | 15 Okyabr 2008 | 4 Noyabr 2008 | 1-6 ay | Tam cavab | Statistika | Şirkət |
| 10 | MSŞA | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti | Rövnəq Abdullayev | itei 10-09 az | 1 | 15 Okyabr 2008 | 4 Noyabr 2008 | 1-6 ay | Cavab Verilməyib | Statistika | Şirkət |
| 167 | MBQ | Bakı şəhər İcra Hakimiyyəti | cənab H. Abutalıbova | 18 | 2 | 10 Fevral 2009 | Cavablandırılmayıb | Cavablan-dırılmayıb | Qismən cavablandırılıb | Statistika | Komitə |
| 117 | MBQ | Azərbaycan Respublikasının Hesablama Palatası | cənab H.Babayevə | 332/08 | 1 | 1 Dekabr 2008 | 29 Dekabr 2009 | 1-6 ay | Tam cavab | Sənəd | Komitə |
| 110 | MBQ | Azərbaycan Respublikasının Nəqliyyat nazirliyi | cənab Z. Məmmədov | 325/08 | 1 | 1 Dekabr 2008 | 25 Dekabr 2008 | 1-6 ay | Cavab | Statistika | Nazirlik |
| 111 | MBQ | Azərbaycan Respublikası Təhsil Nazirliyi | cənab M. Mərdanov | 326/08 | 3 | 1 Dekabr 2008 | Cavablandırılmayıb | Cavablan-dırılmayıb | Verilməyib | Statistika | Nazirlik |
| 169 | MBQ | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti | Rövnəq Abdullayev | 11/09 | 3 | 27 Fevral 2009 | Cavablandırılmayıb | Cavablan-dırılmayıb | Cavab Verilməyib | Statistika | Şirkət |
| 91 | Vətəndaş sorğuları | Azərbyacan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | | Nömrəsiz | 1 | 3 Dekabr 2008 | 22 Dekabr 2008 | 1-6 ay | Tam cavab | Statistika | Komitə |
| 92 | Vətəndaş sorğuları | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Samux rayon Şöbəsinə | | Nömrəsiz | 1 | 3 Dekabr 2008 | 10 Dekabr 2008 | 12 gün | Tam cavab | Statistika | Komitə |
| 94 | Vətəndaş sorğuları | Azərbaycan Respublikasının Bakı şəhər Səbail rayon Məhkəməsi | | Nömrəsiz | 1 | 3 Dekabr 2008 | 5 Dekabr 2008 | 12 gün | İmtina | Statistika | Məhkəmə orqanı |

# Əlavə 2. Göndərilən sorğuları əks etdirən cədvəldən nümunə

| No | Inquirer | Recipient of the inquiry | Attention | Letter registration number | Number of questions in the inquiry | Date | Date of receipt of the answer(s) | Time frame for the answer to the inquiry | Status of the answer | Inquiry profile | Recipient group (ministry, committee, company, judicial body) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 97 | Vətəndaş sorğuları | Azərbaycan Respublikasının Bakı şəhər Suraxanı rayon Məhkəməsi | | Nömrəsiz | 1 | 3 Dekabr 2008 | Cavablandırılmayıb | Cavablan-dırılmayıb | Cavab Verilməyib | Statistika | Məhkəmə orqanı |
| 102 | Vətəndaş sorğuları | Azərbaycan Respublikası Bakı şəhəri Əzizbəyov rayon Məhkəməsi | | Nömrəsiz | 1 | 3 Dekabr 2008 | 11 Dekabr 2008 | 12 gün | Tam cavab | Statistika | Məhkəmə orqanı |
| 98 | Vətəndaş sorğuları | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti | | Nömrəsiz | 1 | 3 Dekabr 2008 | Cavablandırılmayıb | Cavablan-dırılmayıb | Cavab Verilməyib | Statistika | Şirkət |
| 43 | VNŞ | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Hacıqabul rayon Şöbəsinə | | L08 / 091 | 4 | 20 Oktyabr 2008 | Cavablandırılmayıb | Cavablan-dırılmayıb | Cavab Verilməyib | Statistika | Komitə |
| 41 | VNŞ | Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə | | L08 / 104 | 2 | 20 Oktyabr 2008 | 3 Noyabr | 12 gün | Tam cavab | Statistika | Məhkəmə orqanı |
| 60 | VNŞ | Azərbaycan Respublikasının Bakı şəhər Qaradağ rayon Məhkəməsi | | L08 / 108 | 5 | 20 Oktyabr 2008 | Cavablandırılmayıb | Cavablan-dırılmayıb | Cavab Verilməyib | Statistika | Məhkəmə orqanı |
| 53 | VNŞ | Azərbaycan Resbublikası Bakı şəhəri Əzizbəyov rayon Məhkəməsinə | | L08 / 113 | 5 | 20 Oktyabr 2008 | 3 Dekabr 2008 | 1-6 ay | Tam cavab | Statistika | Məhkəmə orqanı |
| 67 | VNŞ | Azərbaycan Respublikası Yanacaq və Energetika Nazirliyi | | L08 / 100 | 2 | 20 Oktyabr 2008 | Cavablandırılmayıb | Cavablan-dırılmayıb | Cavab Verilməyib | Prosedur | Nazirlik |
| 38 | VNŞ | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti | | L08 / 102 | 1 | 20 Oktyabr 2008 | Cavablandırılmayıb | Cavablan-dırılmayıb | Cavab Verilməyib | Sənəd | Şirkət |
| 39 | VNŞ | "Azəriqaz" Dövlət QSC | | L08 / 101 | 1 | 20 Oktyabr 2008 | 27 Oktyabr 2008 | 12 gün | Tam cavab | Statistika | Şirkət |